# Sizdən biri məscidə daxil olduqda: Allahummə-ftəh li əbvabə rahmətik [Allahım, Öz mərhəmət qapılarını mənim üçün aç!], məsciddən çıxdığı zaman isə: Allahummə inni əsələkə min fədlik [Allahım, Sənin lütfündən diləyirəm] desin

Əbu Humeyddən və ya Əbu Useyiddən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Sizdən biri məscidə daxil olduqda: Allahummə-ftəh li əbvabə rahmətik [Allahım, Öz mərhəmət qapılarını mənim üçün aç!], məsciddən çıxdığı zaman isə: Allahummə inni əsələkə min fədlik [Allahım, Sənin lütfündən diləyirəm] desin".
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) məscidə daxil olarkən ümmətinə: «Allahım, Öz mərhəmət qapılarını mənim üçün aç!» deməsini, Uca Allahdan onun üçün rəhmət səbəblərini asanlaşdırmasını, məsciddən çıxakən: «Allahım, Sənin lütfündən diləyirəm» deməsini, Uca Allahdan lütfünü və halal ruzidən olan ehsanını onun üçün artırmasını istəməyi öyrətmişdir.

https://sunnah.global/hadeeth/az/show/65092

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee